# 1 iyun-Usaqların Beynəlxalq Müdafiəsi günüdür



İbrahim Yusifoğlu

## Qıymayın uşaqlara

*Ay, günəş istəyirlər,*
*Nur ələnsin cahana.*
*Şeh, yağış diləyirlər,*
*Təbiət gəlsin cana.*
*İstəyirlər gül, çiçək*
*Ətri çöksün hər yana.*
*Raketləri, topları*
*Tuşlamayın onlara.*
*Tanrıdan gələn səsdi:*
*- Qıymayın uşaqlara!*

*Uşaqları gül üstə*
*Kəpənəklər gözləyir.*
*Səkilərdə gəzişən*
*Göyərçinlər səsləyir.*
*Bülbüllər, qaranquşlar*
*Şux nəğmələr bəsləyir.*
*Bu rəngarəng dünyanı*
*Boyamayın siz qana.*
*Ey insan qatilləri,*
*- Qıymayın uşaqlara!*

*Arzuları tumurcuq,*
*İstəkləri qönçədi.*
*Yaşamaq həvəsləri*
*Hər istəkdən öncədi.*
*Baxışları ovsunlu,*
*Gülüşləri incədi.*
*Dünyanın sinəsinə*
*Vurmayın ağır yara.*

*Ey insan qatilləri,*
*- Qıymayın uşaqlara!*

*Əl boyda uşaqların*
*Ömrünü söndürdünüz.*
*Gecə şirin yuxuda,*
*Yataqda öldürdünüz.*
*Neçə məsum körpəni*
*Ölümə güldürdünüz.*
*Bu vəhşi əməllərdən*
*Dünya gəlibdi zara.*
*Daha yetər, son qoyun,*
*Son qoyun terrorlara.*
*Bu tanrının səsidi:*
*- Qıymayın uşaqlara!*

## DOVŞAN GİRDİ BOSTANA
## KƏLƏM YEDİ DOSTYANA

*-Dovşana bax,dovşana,*
*Sığınıbdı yovşana.*
*Gözləyirki, biz gedək,*
*Gəlib girsin bostana.*

*Dovşan girdi bostana,*
*Boylandı dörd bir yana.*
*Gördü baxan yox ona,*
*Kələm yedi dostyana.*

## KƏNDİMİZ

*Dağlar qoynunda*
*Bir kəndimiz var.*
*Onu görənlər*
*Heyran qalırlar.*
*Gözəl yaradıb*
*Tanrı bu kəndi.*
*Adamları da*
*Zəhmətsevəndi.*

*Gündüzlər günəş*
*Şəfəq ələyir.*
*Gecə ay, ulduz*
*Nura bələyir.*

*Yazda bulaqlar*
*Coşub çağlayır.*
*Dağ çayı daşıb*
*Yola bağlayır.*

*Yayda şəhərdən*
*Qonaqlar gəlir.*
*Çadırlar qurub*
*Burda dincəlir.*

*Çobanlar düzə*
*Yayır sürünü.*
*Balıqlar gölə*
*Qoyur kürünü.*

*Köçəri quşlar*
*Qayıdıb gəlir.*
*Qazlar, ördəklər*
*Bala bəsləyir.*

*Babalar hər gün*
*İş bacarandı.*
*Nənələr kövrək*
*Layla çalandı.*

*Dağların başı*
*Çənsiz olmayır.*
*Yemişan, zirinc*
*Barsız olmayır.*
*Boldu alması,*
*Heyvası, narı.*
*Yaman boy atıb*
*Qoz ağacları.*

*Təpələr, düzlər*
*Nərgiz, lalədi.*
*Dağ zanbaqları*
*Gül piyalədi.*

*Uşaqlar burda*
*Çox mehribandı.*
*Gözəl oxumaq*
*Şərəfdi, sandı.*

*Çox ətirlidi*
*Nanə, yarpızı.*
*Bal tək şirindi*
*Qovun, qarpızı.*

*Əgər astaca*
*Qalxsan bu dağı,*
*Dərərsən çoxlu*
*Quzuqulağı.*

## ÇAYIR

*Baba yeri bellədi,*
*İki kərdi qayırdı.*
*Torpaqdakı otları*
*Kərdilərdən ayırdı.*
*Araz bu vaxt otların*
*Üstə torpaq yayırdı.*
*Bu işini babaya*
*Hələ kömək sayırdı.*
*Babası görcək onu*
*Tezcə işdən ayırdı.*
*Dedi: - Otların yeri*
*Bostan deyil, bayırdı.*
*Bürüyür düz-dünyanı,*
*Araz, bunlar çayırdı.*